# Biz bu gün milli vəhdət, vahid ideya uğrunda birləşmişik



**Yenə də Azərbaycan vətəndaşları işğaldan azad edilən torpaqlarında yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Ötən il sentyabrın 27-də Azərbaycanın işğalçı Ermənistana qarşı başladığı əks-hücum əməliyyatı ilə təcavüzkarın 30 il ərzində işğal altında saxladığı əzəli–əbədi torpaqlarımız azad olundu. Bu, ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun güc-qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsi idi. Bu qələbə, eyni zamanda, bütün dünyaya xalqımızın torpaq-yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, yumruq kimi bir olmağını, milli birliyini nümayiş etdirdi, həmçinin şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qanlarının yerdə qalmadığını göstərdi.**

Azərbaycan 44 gün ərzində əldə etdiyi parlaq qələbə ilə Ermənistanın işğalına son qoydu. Dövlətimizin başçısının vurğuladığı kimi, müzəffər Silahlı Qüvvələrimiz bu savaşla təkcə faşist Ermənistan dövlətini deyil, həm də insanlığa qənim kəsilən faşizmi məğlubiyyətə uğratdı.

Prezident İlham Əliyev Ağdam şəhərinin baş planının təqdim olunması mərasimindəki çıxışında Azərbaycanın uzun illər Ermənistanın işğalına sülh yolu ilə son qoyulmasına çalışdığını xatırladaraq, deyib: “Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına xidmət edirdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil...”.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, işğalçının bu cür mövqedə dayanması, düşmənin torpaqlarımızın Azərbaycana qaytarılmasının mümkünsüzlüyünü açıq-aydın bildirməsi, xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistanın bizə qarşı hərbi təxribatlar törətməsi artıq müharibəni qaçılmaz etmişdi.

Silahlı Qüvvələrimiz 44 gün ərzində işğal altındakı hər bir kənd və şəhərimizin, yüksəkliyin düşməndən təmizlənməsi uğrunda rəşadətlə mübarizə apardı, böyük tarixi nailiyyətlərə imza atdı və düşmənin ordusu haqqında illərdir ki, formalaşdırdığı “yenilməzlik” mifini darmadağın etdi.

Burada bir məqamı da qeyd etməliyik. Ermənistan Ordusu 30 il müddətində işğal altında saxladığı ərazilərdə güclü müdafiə istehkamları qurmuşdu. Bu müdafiə sədlərinin qırılması, sadəcə, böyük qəhrəmanlıq tələb edirdi ki, Azərbaycan Ordusu da bu vəzifəni böyük peşəkarlıq və sücaətlə yerinə yetirdi.

Beləliklə, Silahlı Qüvvələrimizin əks-həmlə əməliyyatları apardığı müddətdə işğalçı dərk etdi ki, nəinki Ermənistan ordusu, hətta bu illər ərzində onun qurduğu və keçilməz saydığı sədlər belə ordumuzun qələbə əzminin qarşısında məhvə məhkumdur.

Ordumuzun apardığı döyüşlər haqq müharibəsi, ədalət savaşı idi. Çünki döyüşlər Azərbaycanın özəli ərazisində gedirdi. Beynəlxalq hüquq bizim tərəfimizdə idi. BMT Təhlükəsizlik Şurasının 7 bəyanatında və 4 qətnaməsində (822, 853, 874, 884 nömrəli qətnamələr) Ermənistan dövlətinin işğalçı olduğu açıq şəkildə öz ifadəsini tapmışdı. Bu sənədlərdə torpaqlarımızın azad edilməsi, məcburi köçkünlərin yurdlarına qayıtması tələb olunurdu.

Yeri gəlmişkən, Qarabağın Azərbaycanın əzəli-əbədi torpağı olması haqqında ötən dövr ərzində digər beynəlxalq təşkilatlar tərəfindən də böyük dəstək ifadə edilib. Belə ki, 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında ulu öndər Heydər Əliyevin siyasi qətiyyəti və diplomatik prinsipiallığı nəticəsində, Ermənistan istisna olmaqla, 54 üzv dövlət tərəfindən Azərbaycanın haqlı mövqeyini müdafiə edən xüsusi sənəd imzalanıb. Bununla bərabər, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumlar tərəfindən münaqişə ilə bağlı çox tutarlı və həqiqəti əks etdirən qətnamələr, qərarlar qəbul edilib. NATO-nun müvafiq sammitlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənib.

Uzun illər ərzində Ermənistanın beynəlxalq tələblərə məhəl qoymadığını, mövcud status-kvonu hər vəchlə uzatmağa çalışdığını və beynəlxalq ictimaiyyətin də buna göz yumduğunu, üstəlik, düşmənin yeni təxribatlara, xalqımıza qarşı təhqiramiz davranışlara əl atdığını görən Azərbaycan pozulan haqq-ədaləti məhz müzəffər ordumuzun gücü ilə bərpa etdi.

Vətən müharibəsi getdiyi günlərdə Ermənistan həmişə olduğu kimi, yenə də Azərbaycana iftira atmaqdan, məkrli yalanlarla ordumuzun haqq işinə – tarixi, müqəddəs missiyasına kölgə salmaqdan belə çəkinmədi. Bütün dünyaya Silahlı Qüvvələrimiz tərəfindən guya fosfor tərkibli sursatların tətbiqi iddiasını yaydı. Halbuki Azərbaycan Ordusunun silahlanmasında beynəlxalq hüquqla qadağan olunan heç bir silah və sursat yox idi. Bu kimi əsassız xəbərlər yaymaqla işğalçı ölkə dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi hərbi cinayətləri gizlətmək məqsədi güdürdü. Əslində isə ordumuzun sarsıdıcı cavab zərbələri qarşısında geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alır, döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən şəhərləri və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tuturdu.

Ermənistan cəbhədə aldığı ağır məğlubiyyətlərin acısını dinc sakinlərdən çıxır və Azərbaycanın mülki şəxslərini hədəf alırdı. Düşmən ölkəyə qarşı siyasi-diplomatik təzyiqlərin olmaması və işğalçının əməllərinin qınanılmaması onu yeni cinayətlər törətməyə sövq edirdi. İstifadəsi qadağan olunmuş raketlərin dinc insanlara qarşı tətbiqi isə çoxsaylı mülki şəxsin həlak olması ilə nəticələnirdi.

Prezident İlham Əliyev çıxışlarının birində xalqımızın qəhrəmanlığını qeyd edərək dedi: “Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb”.

İşğalçı tərəfindən ərazilərimizdə qanunsuz məskunlaşdırma siyasətinin həyata keçirilməsi, mədəni abidələrin, mədəni irsin qəsdən məhv edilməsi, həmin torpaqları qazanc məqsədilə talaması, mineral yataqların qanunsuz şəkildə istismar olunması və xammalın ölkədən kənara çıxarılması, orada qeyri-qanuni iqtisadi əlaqələr qurulması da müharibə cinayətləri idi.

Hazırda Azərbaycan dövləti tərəfindən Prezident İlham Əliyevin “Qarabağda cənnət yaradacağıq” vədinin yerinə yetirilməsi istiqamətində nəzərdə tutulan layihələr sürətlə gerçəkləşdirilir, erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməli qoyulur, tikinti işləri geniş vüsət alır, yüksək texnologiyaların tətbiqinə start verilir.

Bərdə-Ağdam avtomobil yolunun təməlinin qoyulması, eyni zamanda, gələcəkdə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisinin nəzərdə tutulması Qarabağ və ətraf rayonlarda müasir tələblərə cavab verən yol infrastrukturunun yaradılacağından xəbər verir. Bu işlər, şübhəsiz ki, işğaldan azad edilən rayon və kəndlərimizin gələcək sosial-iqtisadi inkişafına, məskunlaşmanın tez bir zamanda gerçəkləşməsinə real zəmin yaradır.

Füzulidən Şuşaya və Göygölün Toğanalı kəndindən Murovdağ silsiləsini keçməklə Kəlbəcər-İstisu istiqamətində yeni avtomobil yollarının tikintisi də sürətlə aparılır. Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin çəkilməsi istiqamətində işlər diqqət mərkəzində saxlanılır. Füzuli və Zəngilanda beynəlxalq hava limanlarının tikintisi də cədvəl üzrə uğurla gerçəkləşdirilir. Yaxın gələcəkdə üçüncü hava limanının isə Laçın rayonu ərazisində salınacağı nəzərdə tutulur.

Prezident İlham Əliyev Ağdam şəhərinə səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşündə bərpa-quruculuq layihələri ilə bağlı bir sıra məqamlara toxunub. Dövlətimizin başçısı Qarabağın və ətraf rayonların “ağıllı region” kimi inkişafı ilə əlaqədar qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə hər zaman xüsusi əhəmiyyət veriləcəyini vurğulayıb. Eyni zamanda, bu istiqamətdə işğaldan azad edilən ərazilərdə ekoloji cəhətdən təmiz, bərpaolunan enerji növlərinin yaradılması üçün geniş imkanların mövcudluğunu da bildirib.

Bu yerdə xatırladaq ki, Ağdamın Baş Planında yaşayış evlərinin salınması ilə yanaşı, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji kimi bir sıra zəruri sahələrin qurulması nəzərdə tutulub. Həmçinin şəhər daxilində 125 hektarlıq böyük bir meşə zolağı və süni gölün yaradılması, kanal və körpülərin inşası da gələcəkdə bütün Qarabağ bölgəsinin “yaşıl enerji” zonasına çevriləcəyini şərtləndirib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Türkiyənin nəqliyyat və infrastruktur nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, vurğuladığı kimi, İkinci Qarabağ savaşından sonra Azərbaycan yeni bir dəhliz– Zəngəzur dəhlizi üzərində iş aparır: “Bildiyiniz kimi, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirmişdir. Ancaq son vaxtlar mənə məlumat verilir ki, Ermənistan tərəfi də artıq bu dəhlizin açılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. Bildiyiniz kimi, indi üçtərəfli çərçivədə müzakirələr aparılır. Azərbaycan, Rusiya, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var.

Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir.

Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır”.

Xatırladaq ki, artıq Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verilib. Yaxın iki il, iki il yarım ərzində həmin dəmir yolunun tam istismara veriləcəyi nəzərdə tutulub.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***